

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

28 NOYABR 2024-cü il CÜMƏ AXŞAMI № 262 (8020) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ


# COP29: Azərbaycanın "yaşıl gündəliyi"nin qlobal uğuru

## *Ölkəmizin çağırışı həmrəylik, birgə əməkdaşlıqdır*

*"Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Liderlər Sammitinin açılış mərasimində deyib.*

Dövlət başçısı bildirib ki, COP29-un sədri kimi Azərbaycan çalışacaq ki, inkişaf etmiş və inkişaf edən ölkələr arasında konsensusun tapılmasına töhfə versin və Qlobal Cənubla Qlobal Şimal arasında əlaqələr qurulsun. İki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar. Azərbaycan qazına çıxışı olan on ölkədən səkkizi Avropada yerləşir. Avropa Komissiyası, həmçinin bizdən xahiş edib ki, biz qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən iki il öncə Bakıda imzalanmış bəyannamədə əks olunub.

Dövlət başçısı COP29-un Liderlər Sammitində bir daha diqqəti Azərbaycanın əməkdaşlıq məkanı kimi nüfuz qazanmasına və bu mövqeyini günbəgün möhkəmləndirməsinə yönəltdi. Ölkəmiz Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasəti nəticəsində inkişaf edir və xalqımız məğrur xalq kimi bütün dünyada tanınır. Azərbaycanın uğurlarını şərtləndirən amillərdən biri də sabitlik diyarı kimi nüfuz qazanmasıdır. İstər ölkə daxilində, istərsə də beynəlxalq miqyasda Azərbaycan müxtəlif proqramlar və tərəfdaşlıqlar vasitəsilə "yaşıl siyasət"ini təkmilləşdirməyə və planeti qorumaq məqsədilə vətəndaşları, təşkilatları və digər ölkələri kollektiv səylərə cəlb etməyə çalışır.

**(davamı 4-cü səhifədə)**



COP29 Baku Azerbaijan

Yaşıl dünya naminə həmrəy olaq!

# COP29: Azərbaycanın "yaşıl gündəliyi"nin qlobal uğuru




(əvvəli 1-ci səhifədə)

## Ölkəmizin çağırışı həmrəylik, birgə əməkdaşlıqdır

Azərbaycanın yanaşmaları ölkənin 2030-cu ilədək sosial-iqtisadi inkişafının əsas milli prioritetlərindən biri olan "Təmiz ətraf mühit və yaşıl inkişaf ölkəsi" konsepsiyası ilə tam şəkildə uzlaşır. Azərbaycan özünün "yaşıl gündəliyi" ilə istilik effekti yaradan qaz emissiyasını beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində qlobal səylərə mühüm töhfə verir. COP29-a ev sahibliyi edən ölkə kimi "yaşıl enerji"yə keçid prosesində öndəgedən dövlətlərdən olmaq Azərbaycanın üzərinə düşən öhdəlikdir. Lakin ötən dövrün təcrübəsinə nəzər salsaq, Azərbaycan özünün inkişaf strategiyasında hələ əvvəldən, 2004-cü ildən etibarən qlobal iqlim dəyişmələrinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqinə əhəmiyyətli yer verir. Prezidentin Sərəncamı ilə 2024-cü ilin Azərbaycan Respublikasında "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ölkəmizin beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədə qətiyyətinin göstəricisidir. Bu mənada "Yaşıl dünya naminə həmrəylik ili" Azərbaycanın COP hərəkatına dəstəyinin bariz nümunəsi kimi qiymətləndirilə bilər. Azərbaycan Prezidenti işğaldan azad edilmiş torpaqları "Yaşıl enerji" zonası elan edib və 2022-2026-cı illər üzrə tədbirlər planı təsdiqlənib, həmin ərazilərin 2050-ci ilədək "netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur. Prezident İlham Əliyev Azərbaycanın "yaşıl dünya" naminə gündəmini belə izah edib: "Yaşıl enerji keçidi bizim prioritet məsələmizdir".

Bu amil yeni baxış rakursuna malik qlobal sərmayədarlar üçün özlüyündə ən azı Azərbaycanın bərpaolunan enerji mənbələri sayılan əlverişli iqlim resursları qədər cəlbedicidir. "Masdar", "ACWA Power" və "bp" kimi sərmayədarların mövcudluğu və maraq göstərən subyektlərin dairəsinin genişlənmə tendensiyası bu reallığı bir daha sübut edir. Nəticə etibarilə ötən ilin oktyabrında 230 meqavatlıq ilk Günəş enerjisi stansiyasının açılışı, Bakı enerji həftəsi çərçivəsində 1 qiqavat olan üç günəş və külək enerjisi stansiyalarının təməlinin qoyulması da məhz bu prosesin bəhrəsidir. Tikilməkdə olan "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası xüsusi əhəmiyyət kəsb edir. Stansiyanın təməli 2022-ci il yanvarın 13-də Xızı rayonunda qoyulmuşdur. Bu, ölkəmizdə xarici sərmayə ilə həyata keçirilən ilk sənaye həcmli bərpaolunan enerji layihəsidir. Stansiya, həmçinin Azərbaycanda ən böyük külək enerji stansiyası olacaq. Layihənin investisiya dəyəri 300 milyon dollar olaraq qiymətləndirilir və stansiyada ildə 1 milyard kilovat/saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. 2027-ci ilin sonuna qədər 9 günəş və külək elektrik stansiyası istismara veriləcək. Üstəlik, Azərbaycan Prezidentinin ifadə etdiyi kimi, "Bu, yalnız başlanğıcdır, çünki biz orta perspektivdə 10 qiqavata və 2030-cu ilədək 5 qiqavata qədər gücü əhatə edən bütün müqavilələri və anlaşma memorandumlarını icra etməyi planlaşdırırıq".

Proseslərin bu cür inkişafı daha bir reallığı - Azərbaycanda yaxşı sərmayə mühitinin olmasını meydana çıxarır ki, Prezident İlham Əliyev bu məqama da xüsusi diqqət çəkir. Nəticədə neft və qaz istehsalçısı qismində olduğu kimi, ölkəmiz qlobal miqyasda bərpaolunan enerji sahəsində strateji tərəfdaş kimi özünü təsdiq edə bilir. Dövlətimiz enerji transformasiyasını uğurla həyata keçirən ölkələr sırasında yer alır. Həmçinin COP29 tədbirinə ev sahibliyi hüququ qazanması bir tərəfdən ölkəmizin və onun Liderinin bütün dünyada artan nüfuzu ilə bağlıdırsa, digər tərəfdən də respublikamızın enerji transformasiyasına göstərdiyi qətiyyətli siyasi iradə ilə şərtlənir. 2030-cu ilədək bərpaolunan enerji mənbələrinin elektrik enerjisi istehsalında payının 30 faizə çatdırılması məqsədilə "yaşıl enerji" mənbələrinin inkişafı Azərbaycanda prioritet istiqamət olaraq müəyyənləşib.

Azərbaycanın enerji keçidinə kompleks yanaşması iqtisadi artımın və elektrik enerjisinə artan tələbatın səbəb olduğu dəyişən enerji mənzərəsində özünü göstərir. Mütəxəssislərin qənaətinə görə, ölkənin dayanıqlı enerjiyə diqqəti "yaşıl enerji"ni təşviq edən və istixana qazı emissiyalarını azaldan xarici siyasət təşəbbüsləri sayəsində beynəlxalq miqyasda yayılır. Azərbaycan alternativ enerji mənbələrinə uğurlu keçid nümunəsidir və "yaşıl enerji"yə keçidə yönəlmiş innovativ yanaşmaların tətbiqi üzrə regionda liderdir, iqlim dəyişmələrinin nəticələrinə qarşı mübarizəyə ciddi töhfə verir. Dünya qazıntı yanacağından yeni yanacaq növünə doğru keçid prosesindədir. Azərbaycan "yaşıl iqlim" və "yaşıl keçid" nöqteyi-nəzərindən qəti siyasi iradə nümayiş etdirir. Neft və qaz sənayesinin modernləşdirilməsi istiqamətində ölkəmizdə atılan addımlar önəmli rola malikdir. Rəqəmsal əsaslı və "ağıllı kənd təsərrüfatı" konsepsiyasının inkişaf etdirilməsi, tullantıların idarə edilməsi, ətraf mühitin, Xəzər dənizinin ekoloji mühitinin və biomüxtəlifliyin qorunması və digər istiqamətlərdə həyata keçirilən tədbirlər yüksək dəyərləndirilir.

2022-ci ilin dekabrında "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması Qara dəniz regionunun "yaşıl enerji" dəhlizi kimi yaradılmasında dönüş nöqtəsi oldu. Bu saziş iddialı layihənin - Azərbaycanın nəhəng bərpaolunan enerji resurslarını Gürcüstan və Rumıniya vasitəsilə Avropa enerji şəbəkəsi ilə birləşdirəcək Qara dəniz enerji sualtı kabelinin tikintisinin əsasını qoydu.

2024-cü il sentyabrın 3-də Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın sistem operatorları - "AzərEnerji", "Gürcüstan Dövlət Elektrosistem", "Transelectrica", MVM - arasında Birgə Müəssisənin Buxarest şəhərində yaradılmasını nəzərdə tutan "Səhmdar Müqaviləsi" imzalanıb. Kabel Azərbaycanda istehsal olunan "yaşıl elektrik" enerjisini Gürcüstan və Qara dəniz vasitəsilə Rumıniyaya çatdırmaq, daha sonra Macarıstana və Avropanın qalan hissəsinə nəql etmək üçün nəzərdə tutulub. Qara dənizin dibi ilə enerji kabelinin texniki əsaslandırma işləri bu yaxınlarda bitəcək. Həmçinin ixrac bazarlarına diqqət yetirilir və öz tərəfdaşlarımızla birgə çalışırıq ki, digər mühüm enerji təhlükəsizliyi layihələrini həyata keçirək. Bunlardan birinin Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsi olduğunu söyləyən dövlət başçısı qeyd edib ki, bunun sayəsində "yaşıl enerji"ni Avropaya nəql edəcəyik. Bu kabelin texniki potensialı və yeri gəlmişkən, texniki əsaslandırma işləri bu yaxınlarda bitəcəkdir. Qara dəniz sualtı enerji kabeli layihəsinin ("Xəzər-Qara dəniz-Avropa" Yaşıl Enerji Dəhlizi) həyata keçirilməsi üçün birgə müəssisənin yaradılması haqqında razılaşma Azərbaycanın Mərkəzi və Şərqi Avropa ölkələri ilə əlaqələrində mühüm mərhələdir.

Ölkə başçısı qeyd edib ki, Azərbaycanın əsas məqsədlərindən biri birliyi və həmrəyliyi yaratmaqdır. Azərbaycan COP zamanı və ondan sonra sədrliyimiz davam edəcəyi dövrdə elə müsbət mühit qurmaq istəyir ki, ölkələr və şirkətlər bir-biri ilə istəklə işləsin və qarşılıqlı iddiaları kənara qoysunlar, planetin qorunması ilə əlaqədar əsas gündəliyə diqqət yetirsinlər.

**Mustafa KAMAL,**
**"Respublika".**